## Heydər Əliyev ili

# Azərbaycanın özü qədər əbədi

Azərbaycan xalqı tarixi bir hadisəni, müstəqil dövlətimizin qurucusu və memarı, azərbaycanlıların milli iftixarı,uşaqların, gənclərin, yaşlıların böyük dostu,ümumilli lider Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100-cü ildönümünü qeyd etməyə hazırlaşır.

Bu bir həqiqətdir ki, xalqımızın milli özünüdərki, dövlətçilik ənənələri, vətənpərvərlik hisssinin oyanışı Heydər Əliyevin adı ilə bağlıdır. İllər ötdükcə bu şəxsin əzəmətini daha aydın dərk edir, qoyub getdiyi tarixi irsin, ideyaların yüksək dəyərini dərindən anlayırıq. Heydər Əliyevin həyat yolu, əməlləri tarixin və xalqın yaddaşına ona görə əbədi həkk edilib ki, o, doğma Azərbaycanı müstəqil bir dövlət kimi dünyaya tanıdıb və Azərbaycanımızın müstəqiliyinin əbədiliyini təmin edib.

Çünki, xalqımız öz dövlətçiliyini dünyəvi, demokratik, hüququ əsaslar üzərində bərqərar olunmasına ulu öndər Heydər Əliyevin qətiyyəti nəticəsində nail olmuşdur.

Ümummilli liderimiz müstəqil dövlətimizin hüquq sistemində ədliyyə orqanlarının rolunu dəfələrlə qeyd etmiş, onun mahiyyətcə təkmilləşdirilməsinə xidmət edən islahatlar həyata keçirmişdir.

1918-ci ildə yaradılan Ədliyyə Nazirliyi sovetlər dövründə dəfələrlə ləğv edilmişdir. Nazirliyin səmərəli dövlət strukturu kimi təşəkkül tapması Heydər Əliyevin adı ilə bağlıdır. Ədliyyə Nazirliyi 1970- ci ildə bərqərar olmuş , onun fəaliyyətini tənzimləyən ən müasir normativ sənədlər qəbul edilmiş, milli kadr hazırlığına xüsusi diqqət yetirilmişdir.

Azərbaycan Ədiyyəsinin inkişafının əsaslı dönüş mərhələsi ümummilli liderimizin ikinci dəfə hakimiyyətə qayıdışından sonrakı dövrə təsadüf edir.

Notariat və Qeydiyyat orqanlarının iqtisadi hüququ proseslərin tənzimləməsində mühüm əhəmiyyəti nəzərə alınaraq, bu orqanlarda da əsaslı islahatların həyata keçirilməsi üçün hüquqi baza yaradılmış, Ailə Məcəlləsi, ”Notariat haqqında” qanun və digər qanunvericilik aktları qəbul edilmişdir. Möhtərəm Heydər Əliyevin 6 mart 2000-ci il tarixli Fərmanı ilə qeydiyyat orqanlarının idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı mühüm qərar qəbul olunmuş, bu orqanların ikili tabeçiliyinə son qoyularaq, onlar Ədliyyə Nazirliyinin strukturuna daxil edilmişdir.

Bütün sahələrdə əhalinin rifahını, ona göstərilən hüquqi xidmətin keyfiyyətinin yaxşılaşdırması məsələlərini daim diqqət mərkəzində saxlayan, hər bir fərdin maraq və mənafelərinin təmin olunmasını önə çəkən ulu öndərin “Azərbaycan Respublikasında vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı işinin təkmilləşdirilməsi haqqında” 31 iyul 2002-ci il tarixli Fərmanı ilə bu sahədə müəyyən səlahiyyətlər yerli icra hakimiyyətlərinə verilmişdir.

Ədliyyə işçilərində mənəvi stimul yaradılması və tarixi irsin qorunması məqsədi ilə H.Əliyevin 11 noyabr 2001-ci il tarixli sərəncamı ilə 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü kimi müəyyən olunmuşdur. Bu yüksək etimad və diqqət hər bir ədliyyə işçisi tərəfindən dərin minnətdarlıq və iftixar hissi ilə qarşılanmışdır.

Heydər Əliyev siyasətini uğurla, yaradıcılıqla davam etdirən Prezident İlham Əiyev Azərbaycanın müstəqilliyini gündən günə möhkəmləndirir, milli mənafelərimizi cəsarətlə və uğurla müdafiə edir, qloballaşmanın doğurduğu əngəlləri və maneələri qətiyyətlə dəf edir. Ata vəsiyyətinə əməl edən möhtərəm Prezidentimiz 44 günlük müharibə ilə ermənilərin işğalında olan torpaqlarımızı geri alaraq zəfər bayrağını göylərə qaldırdı.

Beləliklə, Azərbaycan xalqı Heydər Əliyev yolu ilə öz parlaq gələcəyinə doğru inamla,sürətlə irəliləyir.

Qüdrətli dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyi təkcə azərbaycanlılar üçün deyil, bütün türk dünyası üçün əlamətdar bayramdır. Ulu öndərin işıqlı xatirəsi bizim üçün əziz və unudulmazdır.

**Zinyət BAĞIROVA,**
**Qəbələ rayon Qeydiyyat şöbəsinin rəisi, kiçik ədliyyə müşaviri.**

# Qəbələdən Türkiyəyə

6 fevral 2023-cü il tarixdə qardaş Türkiyə Respublikasında böyük dağıntılara və kütləvi insan tələfatına səbəb olmuş zəlzələdən zərərçəkmiş qardaş və bacılarımız üçün yardım kampaniyasına Qəbələ Rayon İcra Hakimiyyəti də qoşulmuşdur. Bu məqsədlə 13 fevral 2023-cü il tarixdə rayon icra hakimiyyəti tərəfindən 4 TIR humanitar yardım qardaş ölkəyə göndərilmişdir.




# İnsanlara həyat bəxş edildi...

Xeyirxahlıq insanın xarakterinə xas olan müqəddəs bir xüsusiyyətdir. Xeyirxahlıq insanların daxili aləminin--milli-mənəviyyatının zənginliyindən irəli gəlir. Xeyirxahlıq insanlığa məxsus olan ən başlıca vicdani bir diktədir. İnsanların dar günündə onların yanında olmaq, onlara bacardığı köməkliyi etmək xeyirxahlıq deməkdir. Xeyirxahlıq bizlərə ulularımızdan miras qalmış ən qiymətli xəzinədir. Türkiyədə baş verən güclü zəlzələ xalqımızı da sarsıtdı. Dağıntılar, itkilər hər kəsin qəlbini acıtdı. Bütün xalqın nümayəndələri - körpələrdən ta yaşlı nəslə qədər hər kəs bacardığı tərzdə onlara kömək etmək istədi və etdi. Tarix yazan Azərbaycan gəncliyi, xalqın nümayəndələri dağılmış ərazilərə getmək və insanları sağ-salamat dağıntılar arasından çıxarmaq üçün könüllü halda o ərazilərə getdilər. Onlar neçə ailəni, neçə insanı yenidən həyata qaytardılar. Bu yolda qarşılaşdıqları çətinliklər onları öz xeyirxah əməllərindən çəkindirmədi. Zərərçəkənlərə kömək etmək üçün gedən xilasedicilərin arasında bir zamanlar dərs dediyim şagirdimin olması məni qürurlandırdı. Hələ yeniyetməlik çağlarından onda gördüyüm xüsusiyyətlər bu gün öz təsirini göstərmiş, özünü təsdiqləmişdir.



Tamerlan Abbasov Gədəbəy rayonunda I Qarabağ müharibəsi qazisinin ailəsində doğulmuşdur. Ancaq ailə vəziyyəti ilə əlaqədar 2009-cu ildən Zarağan kənd 2 saylı tam orta məktəbinin X sinfinə qəbul olaraq orta təhsilini davam etdirmişdir. Bacarıqlı, çalışqan və intizamlı şagird idi.

Orta təhsilini başa vurduqdan sonra təhsilini davam etdirərək filologiya ixtisasına yiyələnmişdir.

Dörd ildir ki, Xırdalan qəsəbəsində FHN-nin mülki-müdafiə qoşunları hərbi hissəsində işləyir. Türkiyədə baş verən ağır təbii fəlakət onu da sarsıtdı və dağıntılar olan əraziyə könüllü olaraq getmək istədiyini rəhbərliyə bildirdi. Fevralın 8-də əvvəlcə Kahramanmaraşda getdiyi dəstə ilə birgə xilasetmə işlərinə başlamışdı. Onlar 9 nəfəri ayrı-ayrı binalardan, dağıntılar altından salamat xilas etmişlər. 8 gün burada fəaliyyət göstərdikdən sonra Hataya gəlmişlər. Hal-hazırda dağıntılar altında qalmış insanların nəşinin axtarılması üçün fəaliyyət göstərirlər.

Tamerlan Abbasov kimi xeyirxah insanlar bizim qürurumuzdur.

**Zinyət TAHİRLİ,**
**Zarağan kənd 2 saylı tam orta məktəbin müəllimi.**

# Heydər Əliyev və vətənpərvər Azərbaycan gəncliyi

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsində Gənclər və İdman Nazirliyinin yerli struktur bölməsi ilə birgə 2023-cü ilin Heydər Əliyev ili elan edilməsi və Gənclər Günü münasibəti ilə “Heydər Əliyev və vətənpərvər Azərbaycan gəncliyi” mövzusunda seminar keçirilmişdir. Seminarın keçirilməsində əsas məqsəd gənclərlə vətənpərvərlik tərbiyəsi üzrə aparılan işlərin, həyata keçirilən layihələrin əhatə dairəsinin genişləndirilməsi, vətənpərvərlik tərbiyəsinin davamlılığının təmin olunması, gənclərdə fəal vətəndaş mövqeyinin, vətənə və dövlətə sədaqət hissinin formalaşdırılmasından ibarətdir. Sonda rayonun üç təhsil müəssisəsinə “Gənc Şahinlər” hərbi idman oyunlarında, bir qrup gəncə isə rayonun ictimai-siyasi həyatında, idmanda, təhsildə fərqləndiklərinə görə Fəxri fərmanlar təqdim edilmişdir.



# Eloğlumuz Türkiyədə

Xeyirxah əməllər insanın iç dünyasının təzahürüdür. Belə insanların simasında bu xüsusiyyət bir nur şəfəqi kimi hiss olunur. Xeyirxahlıq soy-kökdən gələn bir xislətdir. Əsil xeyirxah insanlar bu xisləti həyata keçirərkən qarşılıq gözləməzlər. Məmməd Araz şeriyyatında deyildiyi kimi:

**Borcu borcla qaytarmazdı bizim babalar,**
**Yaxşılığı yaxşılığa xırdalamazlar.**
**Bu özüldən ucalıbdı bizim qalalar!..**

Xeyirxahlar öz əlilə öz adına qala quranlardır.

Qardaş ölkədə baş verən təbii fəlakət hər bir azərbaycanlının qəlb ağrısına çevrildi. Hər kəs insanların sağ-salamat dağıntılar altından çıxmasını arzulayırdı. Onlara kömək etmək, acı günlərdə əhatəsində olmaq istəyirdi.

Ölkəmizdən qardaş ölkəyə kömək etmək istəyən xilasedici dəstələr getmiş, sidq ürəklə onlara hərtərəfli yardım etmiş və edirlər. Bu xilasedicilər arasında həmyerlimiz Ariz Aydın oğlu Zeynalovun olması sözün doğrusu, qəlbimizdə qürur hissi yaratdı. Qorxmazlıq, insanlıqda fərqlilik, xeyirxahlığın bariz nümunəsi idi onun bu hərəkəti.

Ariz Zeynalov rayonumuzun Zarağan kəndində dünyaya göz açmışdır. Kənd 1 saylı tam orta məktəbində orta təhsil aldıqdan sonra Bakıdakı 1 saylı tibb kollecində oxumuşdur. Əmək fəaliyyətinə Qəbələ Rayon Gigiyena və Epidemiologiya Mərkəzində başlamışdır. Bir müddət burada çalışdıqdan sonra rayonumuzdakı Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunları hərbi hissəsində çalışmışdır.



Türkiyədə fevralın 6-da baş verən ağır zəlzələ onu da sarsıtmış, çoxlu sayda binaların dağılması və əhalinin dağıntılar arasında qalması qəlbini ağrıtmış və onların köməyinə getməyi qərara almışdır.

Fevralın 8 də o, xilasedicilərlə birlikdə Kahramanmaraşda olmuş, dağıntılar arasından insanların sağ-salamat çıxarılmasında iştirak etmişdir. Ariz Zeynalov hazırda Hataydadır və insanların nəşinin dağıntılar arasından çıxarılmasına kömək edir.

Qarşılaşdığı çətinliklərə baxmayaraq, acılı insanların yanında olan və onlara bacardığı köməkliyi edən eloğlumuzla fəxr edirik.

**BİBİXANIM.**